# THE THIRD INTERNATIONAL SYMPOSIUM OF MOUNT ARARAT AND NOAH'S ARK



# III. ULUSLARARASI AĞRI DAĞI VE NUH'UN GEMİSİ SEMPOZYUMU


**Edited by - Editör**

**Prof. Dr. OKTAY BELLİ**


...

"THE THIRD INTERNATIONAL SYMPOSIUM OF MOUNT ARARAT AND NOAH'S ARK"
"III. ULUSLARARASI AĞRI DAĞI VE NUH'UN GEMİSİ SEMPOZYUMU",

Ağrı Valiliği ve İbrahim Çeçen Üniversitesi'nin Ev Sahipliğinde, İstanbul Üniversitesi'nin de birlikte düzenlediği organizasyonu ile 12-14 Ekim 2010 Tarihleri Arasında Ağrı'da İbrahim Çeçen Üniversitesi'nde Nezahat Çeçen Konferans Salonu'nda Gerçekleştirilmiştir.

© Yayın Hakları
**Prof. Dr. Oktay BELLİ**

**İç Tasarım ve Uygulama**
Burhan Maden

**Ön ve Arka Kapak Resimleri**
Z.Z.Acar, M.Lortoğlu, S.Ünsal, E.M.Bulut,O.Belli

**Kapak Tasarımı ve Uygulama**
Nil Nihan Bilkay

**Düzelti**
Güzin Sühran Belli

**Yapım**
Doğuş Matbaacılık
Kağızman Caddesi No:42 - Ağrı Tel: 0472 215 10 10

**Baskı ve Cilt**
ATÖLYE OFSET
İmamçeşme Caddesi Tomurcuk Sokak No: 9/A
Seyrantepe – Şişli – İSTANBUL
Tel: 0212 – 332 06 02 – Fax : 0212 – 332 06 01
www.atolyeofset.com.tr

**İlk Basım 2011 İSTANBUL**

Ağrı İbrahim Çeçen Üniversitesi Yayınları Nr.6
Tüm Hakları Saklıdır. Kaynak Belirtmek Koşulu ile Yararlanılabilir.
ISBN : 978-605-89373-5-2

Bu Kitap Ağrı İbrahim Çeçen Üniversitesi'nin Maddi Katkılarıyla Bastırılmıştır.
Kitapta Yer Alan Makalelerin Her Türlü Bilimsel ve Yasal Sorumluluğu, Yazarlarına Aittir.

# THE LEGENDS CONNECTED WITH NOAN PROPHET, THE WORLD STORM AND COMPARISONS WITH ANATOLIAN TURKS

**Türkan KADİRZADE***

There are different legends connected with the World Storm, its arise causes, where stand of the ship and Noah prophet in some regions of the world. It has been specified in the result of the research that, legends connected with the Noah prophet, name of plase, dwellings of life, sacred place and a place for pilgrimages have spread widely in Nakhcivan and Anatolian region.

Our ultimate goal consist of researching faiths and legends connected with Noah prophet, the World Storm and learning their spreading areal. Comparative researches carried out on the basis of materials allow that, existing legends among people belong to ancestor of the ancient Turks. It has possible to divide the legends of the both region to two places. 1. Life manner until the storm. 2. Manner of next life from the storm. Legends until the storm are connected with arise reasons of the world storm, warning of the ship, dwellings of ancient life and names of places. We have given known about such problems.



* Dr. Türkan KADİRZADE, Azerbaycan Milli İlimler Akademisi Nahçivan Bölümü, NAHÇIVAN
e-mail: tgadirzade@yahoo.com.tr

# NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI ILƏ BAĞLI RƏVAYƏTLƏR VƏ ANADOLU TÜRKLƏRI ILƏ QARŞILAŞDIRMALAR

Türkan KADİRZADE*

Nuh peyğəmbər, Dünya Tufanı ilə bağlı araşdırmaların tarixi çox qədimlərə aiddir. Hər keçən gün problemlə bağlı tədqiqatlar aparılır və yeni-yeni məlumatlar əldə edilir. Bəşəriyyətin ikinci atası olan Nuh peyğəmbərlə bağlı məlumatlara dini mənbələrdə, mifoloji məntlərdə, rəvayətlərdə də rast gəlmək mümkündür. Dünyanın bir çox bölgələrində Nuh peyğəmbər, Dünya Tufanı, Tufanın baş vermə səbəbləri, gəminin harada dayanması ilə bağlı müxtəlif rəvayətlər vardır. Araşdırmalar göstərir ki, Nuh peyğəmbərlə bağlı olan rəvayətlər, yer adları, yaşayış məskənləri, pir və ziyarətgahlar Naxçıvan ərazisində eləcədə Anadolu bölgəsində geniş yayılmışdır. Əsas məqsədimiz bölgədə yayılmış Nuh peyğəmbər, Dünya Tufanı ilə bağlı inam və rəvayətləri araşdırmaq, onların yayılma arealını öyrənməkdən ibarətdir. Toplanan rəvayətlərin araşdırılması göstərir ki, Tufandan sonra sivilizasiyanın ilkin mərkəzlərindən biri gəminin dayandığı ərazidir. Son dövrlərdə bədxah qonşularımız olan ermənilər Nuh peyğəmbərlə bağlı olan bir sıra rəvayətləri özününküləşdirməyə çalışırlar. Onların əsas məqsədi həmin rəvayətlərdə adı keçən əraziləri və xalq arasında qeyd olunan bayram və mərasimləri özlərinə aid etməkdir. Elmi cəhətdən əsassız olan bu uydurmalarının arxasında ərazi iddiaları dayanmışdır. Bu tip ərazi iddialarının qarşısını almaq və elmi həqəqətləri üzə çıxarmaq məqsədi ilə son illərdə geniş şəkildə araşdırmalar aparılmış, xalq arasında mövcud olan və yaşlıların yaddaşlarında qorunub saxlanılan məlumatlar, rəvayətlər sistemli halda toplanıb öyrənilmişdir. Əldə olunan materiallar əsasında aparılan müqayisəli araşdırmalar həqiqətləri ortaya çıxarmağa, xalq arasında mövcud olan rəvayətlərin qədim türklərin ulu babalarına mənsubluğunu söyləməyə imkan verir.

Tarixi mənbələrdən məlum olur ki, qədim türklər yaşadıqları ərazilərdə, yayıldıqları arealda öz milli mənəvi mədəniyyətlərini yaratmışlar. Problemlə bağlı çox sayda kitab və məqalələr nəşr edilmişdir. Prof.dr. H.Q.Qədirzadənin nəşr etdirdiyi kitabda bir çox mübahisəli məsələlərə aydınlıq gətirilmişdir (Qədirzadə Hacı Qadir: 2008). Biz Nuh Peyğəmbər və Dünya Tufanı ilə bağlı geniş etnoqrafik materiallar topladıq. Aparılan araşdırmalar göstərir ki, Naxçıvanda olduğu kimi Anadolu bölgəsində də Nuh Peyğəmbərlə bağlı inam və rəvayətlər geniş yayılmışdır. Aparılan ilkin təhlillər göstərir ki, Dünya Tufanı ilə bağlı geniş məlumatlar, müxtəlif tipli rəvayətlər vardır.

* Dr. Türkan KADİRZADE,Azerbaycan Milli İlimler Akademisi Nahçivan Bölümü, NAHÇIVAN
e-posta: tgadirzade@yahoo.com.tr

Hər iki bölgənin rəvayətlərini 2 yerə bölmək olar. 1.Tufanaqədərki həyat tərzi ilə bağlı olanlar 2.Tufandan sonrakı həyat tərzi ilə bağlı olanlar. Tufanaqədərki rəvayətlərə Dünya Tufanının olmasının səbəbləri, Nuh Peyğəmbərin insanları xəbərdar etməsi və gəminin düzəlməsi ilə əlaqəlidir. Tufandansonrakı rəvayətlərə gəminin harada dayanması, qədim yaşayış məskənləri və yer adları ilə bağlıdır. Tarixdə ən mübahisəli məsələlərdən biri Nuh peyğəmbərin gəmisinin hansı ərazidə dayanmasıdır. Tufanın baş vermə səbəbləri haqqında xalq arasında müxtəlif rəvayətlər vardır. Ordubad bölgəsindən topladığımız rəvayətə görə, hər kəs yolunu azmış, insanlar arasında küfr hökm sürürmüş, insanları cəzalandırmaq üçün Allah-Təala Nuh Peyğəmbərə Dünya Tufanının olacağını, dünyanın üzünü su basacağını xəbər verir və böyük bir gəmi düzəltməyi əmr edir. Gəmini hazırlamaq üçün çoxlu ağac lazım idi. Peyğəmbər onu toplamağa adam axtarır. Həmin ərazidə Acqulu adlı nəhəng bir adam var imiş, əlinə keçəni yeyirmiş amma doymurmuş. Xalq arasında Acqulu, Acıbılıx, Ucubılıx və Ac adı ilə də bilinir. Acqulu çox nəhəng bir insan imiş, bir ayağını Arazın o tayına bir ayağını Arazın bu tayına qoyaraq əyilib Arazdan su içərmiş. Tufan zamanı su Acqulunun aşıqlığına qədər çıxmışdır. Nuh Peyğəmbər gəminin düzəldilməsi üçün Acquluya meşədən odun gətirməyi tapşırır. Acıqulu Peyğəmbərə: «Qarnımı doyursan sənə odun gətirərəm»-deyir. Nuh Peyğəmbər onunla razılaşır. Peyğəmbər hazırladığı yeməyi Acquluya verib deyir: "Sən yeməkdən əvvəl «Bisimillah» de o zaman doyacaqsan". O yeməkdən əvvəl «Bisimillah» deyir və həmin vaxtdan Acqulu bir az yedikdən sonra doyurmuş. Oxşar rəvayət Anadolu türklərində də mövcuddur. Ercilasun Ahmet Bican «Kars ili ağızları» kitabında bu rəvayətin oxşar variantını vermişdir (Ercilasun Ahmet Bican. 1983: 316). Müəllifin Kars bölgəsindən topladığı rəvayət Naxçıvanla eynilik təşkil edir. Rəvayətdə bir fərq ondadır ki, Naxçıvan variantında Peyğəmbərə kömək edən adamın adı Ac, Acqulu, Acıbılıx, Ucubılıx Kars variantında isə Burc olaraq bilinir. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər iki rəvayət eyni mənbədən qidalanmışdır. Nuh peyğəmbər bir müddət keçdikdən sonra gəmini hazırlayıb qurtarır. Gəminin hazırlanmasında iman edənlər və ailə üzvüləri də Peyğəmbərə kömək etmişlər. Gəminin hazırlanması üçün qoz, palıd, şam ağaclarından və qətrandan istifadə olunmuşdur. Gəminin hazırlanmasına baxmayaraq bir müddət yer üzünə yağış yağmır. Nankor insanlar «Dünya Tufanı nə zaman olacaq»-deyə Nuh Peyğəmbərə gülürmüşlər. Boş qalan gəmini murdarlayır, içini əllərinə keçən zibillə doldururlar. Çox keçmədən həmin ərazidə kütləvi yoluxucu xəstəlik yayılır nə edirlərsə ondan qurtara bilmirlər. Bir gün yenə gəmiyə natəmiz şeylər atmağa gedən bir nəfər yıxılır və bədəni orada olan zibilə bulaşır. Sonra həmin adam xəstəlikdən qurtarır. Bunun eşidən digər insanlar da sağalmaları üçün gəmiyə atdıqları zibilləri götürüb bədənlərinə sürtürlər. Təbii ki, bütün bunların heç biri təsadüfən olmayıb. Allah-Təala o qədər böyük gəmini Nuh Peyğəmbərin təmizləməməsi üçün özləri bir zamanlar zibil deyə atdıqlarını dərman kimi itsifadə etməyi məsləhət görmüş və insanlara böyük bir bəla göndərmişdir. Bundan sonra insanlar yenə də Nuh Peyğəmbərə qarşı nankorluq edərək yağış yağmayan bir ərazidə Dünya Tufanı olacağından şübhə edirmişlər.

Materiallaradan aydın olur ki, gəmi hazırlanıb qurtardıqdan sonra yağışların yağmaması Peyğəmbəri narahat edirmiş. Bir gün peyğəmbərin xanımı çörək bişirmək üçün təndiri qalamaq istəyərkən təndin su ilə dolduğunu görür. Bunu Peyğəmbərə xəbər verir. Peyğəmbər: «Gəmiyə minin, təndirin su ilə dolması Tufan olacağına işarədir»-deyir. Toplanan materiallara əsaslanaraq demək olar ki, yağış yağmağa başladıqdan sonra 40 gün 40 gecə davam edir. Xalq arasında olan inama görə gəmi yol aldıqdan sonra yəni, suyun üzünə çıxdıqdan sonra ilk olaraq Ağrı dağa, Iran ərazisində olan Kəmki dağa, sonra Naxçıvan ərazisində olan Ilanlı dağa və Gəmiqaya (Qapıcıq) dağına toxunmuşdur. Naxçıvanda olan inama görə gəmi Gəmiqaya ərazisində, Anadolu bölgəsində isə gəminin Ağrı dağında

dayandığına inanırlar. Mənbələrdə göstərilir ki gəmi Ağrı dağına toxunduqda Nuh peyğəmbər: "necə də ağır dağdır"- demişdir. Elə həmin vaxtdan insanlar oranı Ağrı dağı adlandırır.

Inama görə gəmi Naxçıvan ərazisində 6 dəfə fırlanıb Gəmiqaya adlanan dağda dayanmışdır. Heç təsadüfi deyil ki, xalq buranı Gəmiqaya adlandırıb. Mənbələrdən məlum olur ki, gəminin dayandığı ərazidə böyük bir soy yaranmış və dünyaya buradan yayılmışlar. Gəmiqaya ərazisində Qaranquş yaylağı, Camışölən, Nəbiyurdu yer adlarının olması diqqəti xüsusilə cəlb edir. Bunlarla bağlı xalq arasında müəyyən rəvayətlər vardır. Qaranquşla bağlı rəvayətdə deyilir: Sular çəkilməyə başlayanda Nuh peyğəmbər qarğanı göndərib deyir ki, get qurudan xəbər gətir. Qarğa gedib yolda bir leşə rast gəlir, başı ona qarışır geri qayıtmır. Sonra qaranquşu (bəzi mənbələrdə göyərçini) göndərir. Qaranquş qurunun göründüyünü insana xəbər verir. Rəvayətə görə qurunun göründüyünü Nuh peyğəmbərə xəbər gətirən qaranquşu insanlar müqəddəsləşdirir və ilk məskən saldıqları əraziyə onun adını verirlər. Bu barədə xalq arasında geniş məlumat vardır.

Nuh peyğəmbərin Naxçıvanla bağlılığı ilə əlaqəli rəvayətlər bununla bitmir. Məlumdur ki, Gəmiqaya ərazisində Camışölən adlanan yer vardır. Bölgədən toplanmış rəvayətə görə, tufandan əvvəl Nuh (ə.s.) gəmiyə 2 erkək, bir dişi camış götürmüşdür. Bunun səbəbini soruşduqda Nuh (ə.s.) sağ-salamat qurtardıqdan sonra camışı qurban verəcəyini söyləyir. Tufan dayandıqdan sonra quruya çıxdıqda böyük bir bəladan sağ salamat qurtaran Nuh (ə.s.) həmin camışı qurban kəsir. Elə həmin vaxtdan ora camışölən adlanır. Dünya Tufanından sonra qurban kəsilməsi qədim şumer dastanı olan Bilqamısda da öz əksini tapmışdır. Əsərdən məlum olur ki, quruya çıxdıqdan sonra Utnapişti yüksək bir dağa çıxaraq dörd istiqamətə qurban kəsir (Bilqamıs dastanı. 1985: 91).

Xalq arasında Gəmiqaya ərazisində olan Qız-Gəlin çuxuru ilə bağlı inamlar vardır. Deyirlər ki, Tufandan sonra Nuh peyğəmbərin qızları və gəlinləri ilə olaraq həmin əraziyə ayaq basmışlar. Xalq arasında qız-gəlin çuxuru müqəddəs hesab olunur. Yaxın keçmişə qədər ilin isti vaxtlarında niyyət olan qız, gəlinlər həmin yeri ziyarət edərmişlər.

Gəmiqaya ətrafı kəndlərdən topladığımız materiallara əsaslanaraq demək olar ki, Dünya Tufanından əvvəl Naxçıvan ərazisində olan Göy göllə, indiki Ermənistan ərazisində olan Qazan göl bir gölü təşkil edirmiş. Tufandan sonra həmin göl ikiyə bölünmüşdür. Xalq arasında Göy göl və onun ortasında olan daşla bağlı maraqlı inamlar vardır. Göy göl haqqında olan rəvayətə əsasən gölün ortasında olan daş deyil Nuh peyğəmbərin düzəltdiyi gəminin qalığıdır. Bu daş müqəddəs hesab edilir və niyyət üçün də istifadə edilir. Bu məqsədlə almanı suya atırlar həmin alma daşın ətrafında bir dəfə fırlanıb gəlib atan adamın bərabərindən keçərsə niyyət qəbul olmuş hesab olunur. Indi də onun daş və ya taxta olduğu haqqında heç bir məlumat yoxdur. Xalq arasında belə bir inam vardır ki, indiyə qədər heç kim ona toxunmamışdır.

Gəmiqaya yaşayış yerində qayaüstü təsvirlər üstünlük təşkil edir. Təsvirlərin əksəriyyəti Qaranquş yaylağındadır. Qayaların üstündə olan hər bir təsvir müəyyən inamlarla bağlıdır. Qayaüstü təsvirlərin öyrənilməsi vasitəsi ilə ərazinin qədim türklərə məxsus olduğunu söyləmək mümkündür. Təsvirlər arasında keçi, ilan, quş, maral, insan və ov səhnələri geniş yayılmışdır. Həmin təsvirlər qədim türklərin müqəddəs hesab etdikləri heyvanlar və onlarla bağlı inamları öyrənməyə imkan verir. Ərazidə heyvan təsvirlərinin üstünlük təşkil etməsi xüsusilə maraqlıdır. Toplanmış rəvayətə görə, bu 12 heyvanlı türk təqvimi ilə əlaqəlidir. Bildiyimiz kimi hər il bir heyvanın üstündə təhvil olur və illər bu heyvanların xarakterinə uyğun gəlir. Naxçıvan ərazisində ilin məhz niyə bu heyvanların üstündə təhvil olması ilə bağlı müəyyən rəvayətlər mövcuddur ki, bu da Dünya Tufanı ilə əlaqəlidir. Rəvayətdə deyilir ki, Dünya Tufanı zamanı yağış yağmağa başladıqdan sonra, Allahın hökmü ilə gəmiyə ilk olaraq siçan,

öküz, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, xoruz, it, qaban minir. Ona görə də sıra ilə hər il bu heyvanlardan birinin üstündə təhvil olur. Bu günə qədər Gəmiqaya yaşayış məskənində quş, at, ilan, öküz, balıq, əjdaha, it və s. təsvirlərin olduğu aşkar olunmuşdur. Biz əminik ki, gələcək araşdırmalarda bütün heyvanların təsviri olduğu sübut olunacaqdır.

Etnoqrafik mateiallardan məlum olur ki, keçi təsvirləri daha geniş yayılmışdır ki, bu həm ərazidə heyvandarlığın inkişaf etdiyini, həm də keçi kultu ilə bağlı inancları öyrənməyə imkan verir. Təsvirlərdə keçilər iri buynuzludur. Keçi kultu bütün türk xalqları arasında geniş yayılmışdır. Altay əfsanələrinin birində Dünya Tufanının olacağını ilk olaraq insanlara dəmir buynuzlu, göy tüklü (yunlu) keçi xəbər vermişdir. O 7 gün yer üzünü gəzib insanları tədbirli olmağa çağırmışdır. Keçi təsvirlərinin üstünlük təşkil etməsi onun müqəddəs sayılması, məişətdə geniş yayılması Dünya Tufanı ilə bağlıdır (Vəliyev Kamil. 1988:15).

Gəmiqaya təsvirləri içərisində ilan təsvirləri xüsusi yer tutur. Gəmiqaya ərazisində olan ilan təsvirləri bu ərazidə ilan kultunun geniş yayıldığını söyləməyə imkan verir. Ilanla bağlı bir rəvayətdə deyilir: Dünya Tufanı zamanı bütün canlılar gəmiyə yığılır. Çox keçmədən gəmi bir yerdən deşilir və su içəri dolmağa başlayır. Nuh (ə.s) Peyğəmbər deyir: kim bu açılan deşiyi tıxsa nə arzusı varsa ona çatacaq. Bu zaman gəmidə olan böyük bir ilan həmin açılan yeri tıxır. Suyun gəmiyə dolmasının və insanların məhv olmasının qarşısını alır (Azərbaycan mifoloji mətnləri. 1988: 46). Beləcə insanlar ilanı müqəddəs hesab etməklə onun qoruyucu xüsusiyyətə malik olduğuna və hər zaman onları məhv olmadan qoruyacağına inanmışlar. Bu barədə Azərbaycan folklorunda geniş məlumat vardır (Azərbaycan folkloru antologiyası I. Naxçıvan Folkloru. 1994: 35-35)

Ilanın insana xeyirxahlıq etməsinə nağıl və dastanlarımızda, xalq arasında olan bəzi rəvayətlərdə də rast gəlirik. Inama görə ağ ilan müqəddəsdir, onu öldürmək günah sayılır. Azərbaycan mifologiyasında ağ və qara rəngli ilanlardan geniş bəhs olunur. Rəvayətlərin bəzilərində ilan insana xeyirxahlıq edir, ona yol göstərir, bəzən isə ilan bəd uğursuz hesab edilmişdir.

Bölgədən material toplanması davam edir. Toplanmış materiallar hər tərəfli araşdırıldıqdan sonra ayrı-ayrı məsələlərdən geniş şəkildə bəhs edəcəyik.

## KAYNAKLAR-BIBLIOGRAPHY


1. Azərbaycan mifoloji mətnləri. Bakı:1988
2. Azərbaycan folkloru antologiyası I. Naxçıvan Folkloru. Bakı: 1994
3. Bilqamıs dastanı. rus dilindən çevirəni və ön sözün müəllifi I.Vəliyev. Bakı: 1985
4. Ercilasun Ahmet Bican. Kars ili ağızları. Ankara: 1983
5. Kaynak kişi: Əhmədova Sənubər.
6. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. 2008
7. Vəliyev K. Elin yaddaşı, Dilin yaddaşı. Bakı:1988